# PEŞƏYÖNÜMÜ İŞİNDƏ MƏKTƏBLƏ AİLƏNİN BİRGƏ FƏALİYYƏTİ



**Saidə Nəsibova,**
*Gəncə Dövlət Universitetinin Təhsilin pedaqogikası və metodikası kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru*
*e-mail: saide.nesibova@gmail.com*

**UOT**: 37

**Xülasə.** *Məqalədə dövlətin peşəyönümü sahəsində apardığı uğurlu siyasətindən bəhrələnərək, şagirdlərin uğurlu peşə seçimi etməsində ailə və məktəbin birgə fəaliyyətini diqqət mərkəzinə gətirməyə çalışmışıq. Çünki müəllim valideynlərə övladlarının maraq göstərdiyi başlıca sahələr, onların məktəbdəki tədris və ictimai fəaliyyəti, peşəyönümü ilə bağlı məktəbdə aparılan işlər barəsində məlumat verməli, onlara övladlarının seçdikləri peşənin düzgün olması fikrini təlqin etməli, onları daha da həvəsləndirməyə istiqamətləndirməlidir.*

***Açar sözlər:*** *pedaqoji peşəyönümü, pedaqoji proses, birgə fəaliyyət, tərbiyə, mənimsəmə.*
***Key words:*** *teacher professional orientation, the pedagogical process, the joint activity, upbringing, learning.*
***Ключевые слова:*** *педагогическая профессиональная ориентация, педагогический процесс, совместная деятельность, воспитание, усвоение.*

Şagirdlərdə peşə haqqında təsəvvürlərin, maraq və meyillərin təşəkkül tapıb formalaşmasına, bir tərəfdən ailə və məktəb, digər tərəfdən isə başqa amillər öz təsirini göstərir. Bu gün məktəblilərimizi əhatə edən ictimai mühit o qədər maraqlı və rəngarəng hadisə, faktlarla zəngindir ki, üstəlik informasiya mənbəyinin bolluğu peşə seçməyə təsir göstərən amillərin əhatəsini xeyli genişləndirmişdir. İnternet, radio, televiziya verilişləri, film qəhrəmanları, müxtəlif peşə sahiblərinin söhbətləri, disputlar, müzakirələr və ya müşahidə etdikləri faktlar və hadisələr məktəblilərə peşə seçməkdə xeyli məlumatlar verir. Beləliklə, məktəblilər şəxsiyyətinə təsir göstərən bu saysız-hesabsız məlumatları nəzərdən keçirməyə, müqayisələr aparmağa, münasibətini bildirməyə başlayırlar. Onların zövqünə hansı peşənin uyğun olub-olmaması, hansı peşənin yaxşı, hansının pis olması, hansı peşənin yüngül, hansının ağır, hansı peşəyə çox və az ehtiyac olması, nəhayət, hansı peşənin daha çox gəlirli, hansı peşənin az gəlirli olması haqqında düşünür, doğru qərar verməyə çalışırlar. Bəzən məktəblilər bu barədə yoldaşları ilə mübahisə edir, müstəqil fikir yürütmək istəyirlər. Lakin təəssüflər olsun ki, məktəblilərin peşə seçimi ilə bağlı düşüncələri ailələrdə birmənalı qarşılanmır, valideynlərin ciddi müdaxiləsi onları tutduqları yoldan çəkindirir, sevdiyi peşədən uzaqlaşdırır.

Son dövrlərdə Azərbaycan təhsilində şagirdlərin peşəyönümü işi ilə əlaqədar təqdirəlayiq addımlar atılır. Xatırladaq ki, 2019-2020-ci tədris ilindən etibarən ölkənin 20 ümumtəhsil müəssisəsində peşə təmayüllü siniflər yaradılmışdır. Bu siniflər ümumtəhsil müəssisələrinin ərazisində, eləcə də maddi-texniki tədris imkanları nəzərə

alınmaqla müəyyən edilmişdir. Dövlət hesabına həyata keçirilən peşə təmayüllü siniflər X-XI sinif şagirdləri üçün nəzərdə tutulmuşdur [1].

Məktəblini dərindən öyrənmək, onların peşə meylini, maraq və qabiliyyətlərini müəyyənləşdirməkdə müəllim valideynlərin köməyinə arxalanır. Çünki övladını ata-anadan yaxşı tanıyan yoxdur və onun gələcək taleyi də heç kəsi valideynləri qədər maraqlandırmır. Ona görə də təlim sahəsində olduğu kimi, tərbiyə sahəsində də müəllimin gördüyü hər bir iş valideyn tərəfindən müdafiə olunmalıdır. Bu, eynilə məktəbin apardığı peşəyönümü işinə də aiddir.

Xüsusilə müəllimlik peşəsini seçmək istəyən şagirdlərin valideynləri ilə iş diqqət mərkəzində dayanmalıdır. Çünki son zamanlar müəllim nüfuzunun aşağı düşməsi ilə əlaqədar olaraq bir çox valideynlər müəllimlik peşəsinə meyil göstərən övladlarını bu arzudan uzaqlaşdırmağa çalışır, onları zorla istəmədikləri peşəni seçməyə məcbur edirlər. Nəticə isə çox acınacaqlı olur. Həyatda öz yerini tapa bilməmək hər bir gənc üçün çox böyük fəlakətə çevrilir. Bu isə iqtisadiyyatın geriliyi, cəmiyyətin maddi və mənəvi sarsıntısı, hər bir mütəxəssis üçün dövlətin sərf etdiyi vəsaitin havaya sovrulması deməkdir. Təəssüf ki, bu gün də məktəblərimizdə pedaqoji sahədə heç bir fitri qabiliyyəti, marağı olmayan müəllimlər çalışırlar. Onlar bir yox, bir neçə nəsli küt, savadsız və korafəhim böyüdürlər.

Valideynlərlə aparılan sorğulardan belə nəticə diqqəti cəlb edir ki, onların əksəriyyəti müəllimliyi qızlar üçün münasib peşə sayırlar. Fikrimcə, şagirdlərin müəllim peşəsinə münasibəti əslində valideynlərin həmin peşəyə münasibətini əks etdirir. Müşahidələr göstərir ki, valideynlər kiçik yaşlarından qızları həmin peşələrə daha çox həvəsləndirirlər. Son dərəcə maraqlı olan bu sosial-psixoloji fenomeni nə ilə izah etmək olar?

Müasir ailələrdə tərbiyə baxımından yeni şərait yaranmışdır. Sosioloqlar ailə tərbiyəsinin bütün sahələrində, o cümlədən peşəseçmə sahəsində anaların rolunun artmasını xüsusi qeyd edirlər. Bunu, hər şeydən əvvəl, qadınların təhsil səviyyəsinin artması ilə izah edirlər. Respublika Statistika İdarəsi Demoqrafiya Laboratoriyasının apardığı tədqiqatlar göstərir ki, qadınların təhsil səviyyəsi artdıqca ailədə uşaqların sayı azalır, başqa sözlə desək, azuşaqlı ailələr formalaşır. Onların içərisində isə təkuşaqlı, eləcə də ikiuşaqlı ailələr xüsusi yer tutur. Aparılan müşahidələr göstərir ki, məhz belə ailələrdə uşaqların peşəyönümü işində ciddi nöqsanlar daha çox meydana çıxır. Valideynlər uşaqlarının hansı sahə ilə maraqlanmasına əslində əhəmiyyət vermirlər. “Uşağın gələcəyini” özləri vaxtında həll etmək istəyirlər. Onlar bilavasitə ananın birtərəfli peşə modeli əsasında tərbiyə edilirlər. Bəs bu peşə modelində müəllimlik peşəsi hansı yeri tutur?

Vaxtilə müəllimlik nüfuzlu peşələr arasında xüsusi yer tuturdu. Mahiyyət etibarilə onu kişi peşəsi hesab edirdilər. İndi isə xüsusilə şəhər yerində müəllimliyi qız-qadın peşəsi kimi səciyyələndirən təsəvvürlər geniş yayılmışdır [2, s.28]. Bu təsəvvürlərin bərqərar olmasında analar xüsusilə fərqlənirlər. *Bəs bəzi valideynlərin müəllimlik peşəsinə münasibətinin dəyişməsi nə ilə əlaqədardır?*

Son illərdə müəllimlik mahiyyətcə kütləvi peşəyə çevrilmiş, onun əhəmiyyəti bilavasitə nəsillərin varisliyində və elmi-texniki tərəqqinin inkişafında oynadığı rola görə deyil, daha çox rentabellik dərəcəsinə görə qiymətləndirilməyə başlanılmışdır. Bu zəmində də müəllimlik barəsində yeni stereotiplər formalaşmış və o ən çox qadın peşəsi kimi qiymətləndirilmişdir. Halbuki tarix boyu müəllim peşəsinə son dərəcə yüksək mənəvi tələblərlə yanaşılmışdır. Bu da həmin peşənin humanist səciyyə daşımasından irəli gəlir. Müəllim insan mənəviyyatının qurucusu olduğuna görə, əxlaq normaları heç bir əmək sahəsində pedaqoji fəaliyyətdə olduğu qədər qabarıq tərzdə nəzərə çarpmır. Müəllimin davranışı təlim-tərbiyə işlərinin müvəffəqiyyət və səmərəliliyini təmin edən çox mühüm şərtlərdən biri hesab edilir. Cəmiyyət ən əziz, ən qiymətli sərvəti olan uşaqları – öz ümidini, gələcəyini müəllimə etibar edir. Bu nəcib və çox çətin peşə həyatını ona həsr edən insandan daim yaradıcılıq, yorulmadan düşünübdaşınmaq, qəlb genişliyi, uşaqlara məhəbbət, işinə hədsiz sədaqət tələb edir. Müəllimin fəaliyyət dairəsi və bununla əlaqədar peşəkar əxlaqi münasibət sahələri çox genişdir. Şagird kollektivinə etik münasibət onun digər əxlaqi münasibət sahələri içərisində mühüm yer tutur.

Müasir dövrdə valideynlər peşələrə daha çox güzəran psixologiyası baxımından yanaşırlar. Müəyyən edilmişdir ki, valideynlərin üçdə iki

hissəsi uşaqlarının nə ilə maraqlandıqlarını bilmirlər. Bəs peşəseçmə kimi vacib dövlət əhəmiyyətli bir məsələyə düzgün yanaşmaqda məktəb valideynlərə hansı aspektdə kömək göstərə bilər?

Təcrübə göstərir ki, peşəyönümü işini günün tələbləri səviyyəsinə qaldırmaq üçün məktəblə ailənin birgə fəaliyyətini səmərəli şəkildə təşkil etmək tələb olunur. Pedaqoji bilikləri valideyn ictimaiyyəti arasında yaymaq, onlara uşaqların peşəseçmə işi ilə bağlı düzgün istiqamət vermək məktəbin qarşısında duran başlıca vəzifələrdəndir. Çünki valideynlər uşaqlarının xarakterinə, anatomik-fizioloji xüsusiyyətlərinə hər kəsdən daha çox bələddir və onların gündəlik davranışını izləmək imkanına malikdir. Tutaq ki, ailənin qız övladı müəllim olmaq istəyir. Lakin valideynlər bilirlər ki, övladları əsəbidir, sabit xarakterə malik deyil, son dərəcə həssasdır, üstəlik nitqi də qüsurludur, məktəbdə işləmək onun üçün çox çətin olar. Ona görə də onu başqa əmək sahəsinə istiqamətləndirmək lazımdır. Bəzən peşə yararlığı sahəsində məlumatsızlıq hamımıza çox baha başa gəlir. Ona görə də şagirdlərin fərdi xüsusiyyətləri və keyfiyyətlərinin aşkara çıxarılmasında, bu keyfiyyətlərin seçilmiş peşənin tələblərinə cavab verib vermədiyini müəyyənləşdirməkdə məktəbin valideynlərə köməyi zəruridir.

Məlumat xidməti gənclərin peşəyönümü sistemində zəif halqadır. İlk baxışdan hər şey öz qaydasında görünür. Bu gün məktəblərə təşkilatların nümayəndələri daha tez-tez təşrif gətirir, şagirdlərin maraqlarına müvafiq dərnək və fakültətivlər, müəssisələrə ekskursiyalar təşkil edilir, qəzet səhifələrində təhsil və işlə təmin olunma ilə bağlı elanlar tez-tez dərc edilir. Lakin bütün bunlara baxmayaraq, peşələr haqqında şagirdlərin məlumatları istənilən səviyyədə deyildir. Bütün bu məsələlərin həllində, peşəyönümünün düzgün istiqamətləndirilməsində, sevdiyi peşəyə maraq və məhəbbət tərbiyə etməkdə disputlar, debatlar, ədəbi müzakirələr, tərbiyəvi söhbətlər, müxtəlif peşə sahibləri ilə görüşlər, müxtəlif əmək müəssisələrinə, peşə məktəblərinə ekskursiyalar təşkil etmək xüsusi əhəmiyyət kəsb edir. Bu, onlarda istedad və qabiliyyətlərin aşkara çıxarılmasına, və ictimai fəallığının artmasına xeyli kömək edir. Eləcə də şagirdlər təlim prosesinə daha ciddi münasibət göstərir, öz maraq, bacarıq və qabiliyyətlərinə uyğun peşələr seçməyə təşəbbüs göstərirlər. Bu işdə məktəblə yanaşı, valideynlər də öz imkanlarından tam istifadə etməlidirlər.

**Məktəbin valideynlərlə apardığı peşəyönümü işinin başlıca istiqamətləri aşağıdakılardan ibarət olmalıdır:**

*– valideynlərin peşəyönümü üzrə pedaqoji təbliğatla geniş əhatə olunması;*

*– şagirdlərlə aparılan pedaqoji peşəyönümü işinə valideynlərin maksimum dərəcədə cəlb olunması [3, s.249].*

Valideynlərin sosial tərkibindən, həmçinin məktəbin imkanlarından asılı olaraq, məktəbdə valideynlərlə iş planının tərtib olunması məqsədəuyğundur. Başlıca məqsəd peşəyönümü işində valideynləri müəllim və şagirdlərin ən yaxın köməkçisinə çevirmək, onları rayonun (şəhərin) mütəxəssislərə olan tələbatları ilə tanış etmək, konkret peşənin şəxsiyyətə verdiyi tələblərlə bağlı məlumat verməkdir. Sinif rəhbəri məktəbdə yaradılan Valideyn Komitəsi vasitəsilə şagirdlərin peşəyönümü sahəsində məktəbə kömək etməyə imkanı və hazırlığı olan valideynlərin siyahısını və onlarla aparılacaq işin məzmununu müəyyənləşdirməlidir.

Valideynlərlə işin forma və metodları müxtəlifdir. Bura fərdi və qrup şəklində aparılan söhbətlər, valideyn yığıncaqları, əmək tərbiyəsi və peşəyönümünün müxtəlif məsələlərinə həsr edilmiş konfranslar, müəllimlərin şagirdlərin evlərinə gedişi, anket sorğuları, valideynləri pedaqoji peşəyönümü məsələləri ilə silahlandırmaq üçün təşkil edilən pedaqoji seminarlar və s. daxildir. Ümumiyyətlə, məktəbin valideynlərlə apardığı iş iki əsas formada – fərdi və qrup şəklində təşkil edilə bilər:

**Fərdi iş formalarına:**

*– valideynlərlə söhbətlər;*

*– hər hansı konkret halda valideynə kömək məqsədi güdən məsləhətlər;*

*– hakim məsləhəti aiddir [4, s.255].*

**Qrup şəklində aparılan iş formalarına:**

*– uşaqların əməyə cəlb edilməsi, onların maraq göstərdiyi sahələr üzrə məlumatlarının genişləndirilməsi;*

*– uşaqların fərdi xüsusiyyətlərinin öyrənilməsi;*

*– peşənin şəxsiyyətə verdiyi tələblərlə bağlı valideynlərlə söhbətlər;*

*– valideyn konfransları;*

*– valideyn yığıncaqları;*

*– peşəyönümü məsələləri üzrə valideynlər üçün pedaqoji mühazirələr aiddir [5, s.188].*

Valideynlərlə iş təkcə pedaqoji təbliğatla deyil, eyni zamanda məktəbin pedaqoji peşəyönümü üzrə keçirdiyi tədbirlərə onların daha yaxından cəlb edilməsini də tələb edir.

**Nəticə.** Deyilənləri ümumiləşdirib belə qənaətə gəlmək olar ki, şagirdlərin peşəyönümü işini kiçik yaş dövrlərindən başlamaq məqsədəuyğundur. Bu işdə məktəblə ailə birlikdə fəaliyyət göstərməlidir. Son dövrlərin müşahidələri onu deməyə əsas verir ki, şagirdlərin peşəseçmə ilə bağlı çətinlikləri sonda xoş olmayan hallarla nəticələnir. Belə halların olmaması üçün onların bütün peşələrlə tanış olması və mahiyyətini bilməsi çox vacibdir. Bu işi məktəbdə müəllim, evdə isə valideyn diqqətli şəkildə həyata keçirməlidir.

## ƏDƏBİYYAT

1. Peşə təmayüllü siniflər yaradılır. https://edu.gov.az/az/news-and-updates/17219

2. Məhərrəmov Ə.M. Azərbaycanda pedaqoji kadr hazırlığının inkişaf tarixi (1961-1981-ci illər). Bakı, ADPU, 1998, 150 səh.

3. İlyasov M. Peşəyönümün əsasları (dərs vəsaiti). Bakı, Mütərcim, 2011, 323 səh.

4. İlyasov M. Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları (monoqrafiya). Bakı, Elm, 2005, 300 səh.

5. İlyasov M. Şagirdlərin peşə seçməyə hazırlanması (monoqrafiya). Bakı, Elm, 2009, 292 səh.

**S.Nasibova**

## Joint activity of school and family for vocational purposes

### Abstract

Taking advantage of the successful policy of the state in the field of vocational guidance, in our article we have tried to focus on the joint activities of the family and the school so that children can make a successful career choice. Because the teacher should inform parents about the main areas of interest of childrens, their teaching and social activities at school, the work carried out at school in connection with the profession, to convince them that their children's chosen profession is right, to encourage their children.

**С.Насибова**

## Совместная деятельность школы и семьи в деятельности профориентации

### Аннотация

Воспользовавшись успешной политикой государства в сфере профориентации, в нашей статье мы постарались сделать акцент на совместной деятельности семьи и школы, чтобы дети могли сделать успешный выбор профессии. Потому что учитель должен информировать родителей об основных направлениях интересов детей, их педагогической и общественной деятельности в школе, работе, проводимой в школе в связи с профессией, убеждать их в правильности выбранной профессии их детьми, поощрять их детей .